Barattson

Azərbaycan Rc... ...asının
Auditorlar P... ...sı
Daxil № 117
"12" 02. 2021ci il

10/ 02 /2021

№ BR-03

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illik yubileyi münasibəti ilə**

**Hörmətli Vahid müəllim,**

Ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev tərəfindən 1994-cü ildə imzalanmış “Auditorlar xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yaradılmış və 1996-cı il 5 aprel tarixindən fəaliyyətə başlamış rəhbəri olduğunuz Azərbaycan Respublikası Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə Sizi və Palatanın dəyərli kollektivini təbrik edir və işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin respublikamızın iqtisadi həyatında şəffaflığın təmin edilməsinin artırılması, maliyyə və vergi intizamının gücləndirilməsi, kölgə iqtisadiyyatının azaldılması və bununla da ölkəmizin beynəlxalq iqtisadi aləmə inteqrasiyası ilə bağlı həyata keçiridiyi siyasəti dəstəkləyən fəaliyyətinizi bir sahibkarlıq subyekti kimi məmnuniyyətlə yaxından izləyirik. Həmçinin, son beş il ərzində mühasibat uçotu sahəsində yuzlərlə mütəxəssisin hazırlanması və sertifikatlaşdırılmasında rəhbərlik etdiyim Barattson Təlim Mərkəzinə Azərbaycan Respublikası Auditorlar Palatasının göstərmiş olduğu dəstəyə görə Sizə öz dərin təşəkkürümü bildirirəm.

Artıq torpaqları işğaldan azad olunmuş, sürətli iqtisadi inkişafın yeni mərhələsinə qədəm qoyan müzəffər ölkəmizin iqtisadi həyatında Azərbaycan Respublikası Auditorlar Palatasının bundan sonra da uğurla fəaliyyət göstərəcəyinə ümidvar olduğumu ifadə edərək, fəaliyyətinin 25 illik yubileyi münasibəti ilə Siz başda olmaqla Palatanın dəyərli kollektivinə ən xoş arzularımı bildirirəm.

**Hörmətlə,**

“Barattson” MMC-nin
Müşahidə Şurasının sədri — Elşən Rəhimov

AZƏRBAYCAN RESPUBLİKASI
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ
BARATTSON
LIMITED LIABILITY COMPANY
2
REPUBLIC OF AZERBAIJAN

Bəxtiyar Vahabzadə 5, 3-cü mərtəbə, Bakı AZ1145, Azərbaycan
+994 12 505 44 96/97 | +994 70 332 51 67
office@barattson | www.barattson.com